DOI: 10.55543/insan.1218295 *Araştırma Makalesi/Research Article*

# Dünya İnsan Bilimleri Dergisi

World Journal of Human Sciences

ISSN: 2717-6665

Temmuz 2023 Cilt/Volume: 2023 Sayı/Issue: 2

## Azərbaycan və Türkiyə Diasporlarının Beynəlxalq Fəaliyyətinin Konseptual Məsələləri

*Conceptual Issues of the International Activity of the Diasporas of Azerbaijan and Turkey*

*Yahya Babanlı* *

**Özet**

Məqalədə qeyd olunur ki, XXI əsrin qeyri-müəyyən qaydaları fonunda sürətlə dəyişən dünyanın müasir reallıqları xalqlar qarşısında mühüm tarixi əhəmiyyətli və milli taleyüklü vəzifələr qoyur. Dövlətlər arasında inteqrasiya prosesləri, planetin siyasi landşaftında baş verən hadisələr insan sivilizasiyasının yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Eyni zamanda, mövcud vəziyyət iki tərəfli və çoxtərəfli münasibətlərdə diasporun yeri və rolunu artırır. Bu baxımdan, diasporla iş sahəsində Azərbaycan və Türkiyə dövləti qarşısında böyük məsuliyyət dayanır.

Türkiyə-Azərbaycan diasporunun birgə fəaliyyəti bir neçə istiqamətdə özünü göstərir. Bu istiqamətlər əsasən “erməni soyqırımı” haqqında dünyada erməni təbliğatı ilə mübarizə aparmaq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi həqiqətlərini, ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm aktlarını dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçündür. Uydura erməni soyqırımı, Qarabağ münaqişəsi, habelə Xocalı faciəsi ilə bağlı obyektiv məlumatlandırma, informasiya və təbliğat kompaniyaları həyata keçirmək və haqq-ədalətin bərpası üçün birgə lazımi addımlar atmaq.

**Açar Sözlər**: Azərbaycan, Beynəlxalq, Diaspor, İkitərəfli Münasibətlər, Türkiyə.

* **Sorumlu Yazar/Corresponding author:** Doktorant, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, y_babanli@yahoo.com, ORCID ID: 0000-0001-5912-6781.

**Atıf/Citation:** Babanlı, Y. (2023). Azərbaycan və Türkiyə Diasporlarının Beynəlxalq Fəaliyyətinin Konseptual Məsələləri. *Dünya İnsan Bilimleri Dergisi*. 2023 *(2)*, 97-111.

**Geliş/Received:** 13.12.2022 **Kabul/Accepted:** 04.06.2023

**Abstract**

The article mentions that the modern realities of the world, which are rapidly changing against the background of uncertain rules of the 21st century, pose important tasks of historical significance and national destiny to the Peoples. The processes of integration between states, the events taking place in the political landscape of the planet indicate that human civilization has entered a new stage of development. At the same time, the current situation increases the place and role of the diaspora in bilateral and multilateral relations.

In this regard, Azerbaijan and Turkey have a great responsibility in the field of working with the diaspora.

The joint activity of the Turkish-Azerbaijani diaspora manifests itself in several directions. These directions are mainly to fight the Armenian propaganda about the "Armenian genocide" in the world, to bring the facts of the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict, acts of vandalism committed by Armenians against Azerbaijanis to the attention of the world community. During the Karabakh war, especially the Khojaly tragedy, to ensure the awareness of the interesting peace and to take necessary steps for the restoration of justice.

**Keywords:** Azerbaijan, Turkey, Diaspora, International, Bilateral Relations.

**Təqdimat**

XXI əsrin qeyri-müəyyən nizamı fonunda sürətlə dəyişən dünyanın müasir reallıqları bütün türk xalqlarının qarşısında mühüm tarixi əhəmiyyətli və milli taleyüklü vəzifələr qoymuşdur. Dövlətlər və xalqlar arasında gedən inteqrasiya prosesləri, planetin siyasi mənzərəsində baş vermiş hadisələr bəşər sivilizasiyasının yeni bir inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Türk dünyasının bu mürəkkəb və ziddiyyətli mərhələdən müvəffəqiyyətlə çıxması eyni tarixi köklərə malik olan xalqlarımız arasında birliyin və həmrəyliyin səviyyəsindən yüksək dərəcədə asılıdır. Bu sahədə bütün türk dövlətlərinin, xüsusilə də Azərbaycan və Türkiyənin üzərinə böyük məsuliyyət düşür. Strateji müttəfiqlik xarakteri daşıyan Azərbaycan-Türkiyə münasibətləri qloballaşan dünyanın tələblərinə uyğun olaraq günü-gündən möhkəmlənməkdə və inkişaf etməkdədir. Çoxəsrlik dil, din, qan qardaşlığına, ortaq etnomədəni dəyərlərə söykənən bu münasibətlər ölkələrimizin qloballaşan dünyaya inteqrasiyasının ən mühüm dayaqlarından birini təşkil edir. Tarixən olduğu kimi, Sovetlər Sosialist Respublikaları İttifaqının süqutu nəticəsində dünyanın ictimai-siyasi düzənində baş vermiş dəyişikliklərdən sonra Azərbaycan ilə Türkiyə arasında diplomatik, siyasi-iqtisadi, sosial-mədəni, humanitar həyatın bütün sahələrində dostluq, əməkdaşlıq, tərəfdaşlıq münasibətləri daha da dərinləşərək yeni mərhələyə qədəm qoymuş və müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Ölkələrimiz regionda həyata keçirilən qlobal humanitar-iqtisadi layihələrdə strateji tərəfdaş olmaqla yanaşı, bölgədə sülhün, təhlükəsizliyin və sabitliyin bərqərar edilməsi ilə bağlı məsələlərdə eyni mövqedən çıxış edir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra müstəqilliyimizi ilk tanıyan dövlət də məhz Türkiyə olub. Azərbaycan və Türkiyənin ortaq milli maraqları və təhlükəsizliyi xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına, onlar arasındakı qardaşlıq tellərinin möhkəmlənməsinə təkan verir. Azərbaycan öz suverenliyinə qovuşduğu ilk gündən etibarən, özünü Türk Dünyasının tərkib hissəsi hesab etməsi və türkdilli dövlətlərlə yaxınlaşma strategiyası öz təsirini diaspor qurumlarına da göstərməkdədir. Bu yaxınlıq daha çox özünü Türkiyə-Azərbaycan əlaqələrində göstərir. Bəllidir ki, Azərbaycan-Türkiyə münasibətlərində hər hansı bir mərhələ yoxdur. Bu münasibətlər, sözün bütün mənalarında, qardaşlıq nümunəsidir.

2021-ci il iyunun 15-də İkinci Qarabağ, Vətən müharibəsi zamanı azad edilmiş Qarabağ torpağı olan Şuşa şəhərində iki ölkə arasında imzalanmış “Azərbaycan Respublikası ilə Türkiyə

Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi bunun əyani təsdiqidir.[1]

Bu üsusda, digər sahələr kii Azərbaycan və Türkiyə diasporlarının üzərinə böyük məsuliyyət və əzifələr düşür. Bu isti münasibətlər özünü diaspor məsələsində - əməkdaşlığında da göstərməlidir. Şuşa Bəyannaməsində yer alan həssas və strateji məqamlar diqqətdə saxlanılmalıdır:

"Tərəflər müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər.

Tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər".[2]

Dövlətlərin qardaşlıq münasibətləri qürbət ölkələrdə yaşayan soydaşlarımızın da bir-birlərinə yaxınlaşmasına, bütöv bir güc kimi fəaliyyət göstərməsinə xidmət edir. Bugün dünyada fəaliyyət göstərən Azərbaycan və türk diasporları bütün məqamlarda bir yerdədirlər. Göründüyü kimi, xalqlarımızın tarixi problemlərinin, milli məsələlərinin beynəlxalq ictimaiyyətinə çatdırılmasında, dövlətlərimizin dünyada mövqelərinin güclənməsində diaspor təşkilatlarımızın üzərinə böyük vəzifə və məsuliyyət düşür.

## 1. Azərbaycan və Türkiyə Diasporlarının Beynəlxalq Fəaliyyətinin Konseptual Məsələləri

Azərbaycan və Türkiyə diasporlarının birgə fəaliyyət göstərməsində hər iki dövlətin mənafeyinə uyğundur. Həmin maraqların təmin olunması üçün əməli fəaliyyət də göstərilməkdədir. 2007-ci ilin mart ayının 9-da Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində həyata keçirilən "Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I Forumu" bu istiqamətdə atılan ən vacib addımlardandır. Əgər, biz "bir millət, iki dövlət" iksə, onda vahid diaspor və hədəf müəyyənləşdirilməlidir.[3]

Məhz Azərbayan Prezidenti İlham Əliyevin tədbirin keçirilməsi barədə təşəbbüsü də bu prinsipə əsaslanırdı.

[1] https://e-qanun.az/framework/49147
[2] https://e-qanun.az/framework/49147
[3] https://files.preslib.az/projects/diaspora/c6.pdf

Azərbaycan Prezidenti İlham Əliyevin həmin tədbirdəki çıxışı zamanı nəzərə çatdırdığı məsələlər hər iki diaspor təşkilatlarının birlikdə olmasına Azərbaycan dövlətinin verdiyi önəmin bariz nümunəsi idi:

"Biz bütün tədbirlərdə bərabər iştirak edirik, aramızda ən yüksək fikir birliyi var. Bəlkə də dünyada ikinci belə ölkələr yoxdur ki, bir-birinə bu qədər bağlı olsun. Həm xalqların etnik mənsubiyyəti baxımından, həm siyasi baxışlar, həm də ortaq maraqlar baxımından. Biz elə etməliyik ki, birliyimiz daha da güclənsin, hərtərəfli olsun. Təbii ki, bu işlərdə xaricdə yaşayan soydaşlarımızın da fəaliyyəti çox əhəmiyyətlidir".[4]

İlham Əliyevi öz nitqində iki qardaş ölkənin diasporlarının birgə fəaliyyətinin vacibliyini dəfələrlə vurğulayır. O Forumdakı çıxışı zamanı bu günə qədər geniş mənada dünya ictimaiyyətində haqqımızda tam həqiqəti əks etdirən rəy yoxdur deyərək əlavə edib:

"Bunun da səbəbləri var. Əleyhimizə çox güclü erməni lobbisi fəaliyyət göstərir. O, Türkiyə və Azərbaycana düşmənçilik mövqeyindədir və bizi ləkələmək, ölkələrimizdə gedən prosesləri təhrif etmək, yalan, böhtan kampaniyasını aparmaq onların əsas peşəsidir. Biz bunun qarşısına öz siyasətimizi, təbliğat mexanizmimizi qoymalıyıq və qoyuruq. Ona görə xaricdə yaşayan soydaşlarımız daha da güclənməlidir, təşkilatlanma prosesi daha da sürətlə aparılmalıdır. Onlar yaşadıqları ölkələrin siyasi dairələrinə, siyasi təsisatlarına daha da fəal inteqrasiya etməlidirlər".[5]

Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin qarşısında etdiyi bu çıxışı hər bir diaspor təşkilatının birgə fəaliyyət göstərməsinə stimul verir, onları daha çox təşkilatlanmağa çağırırdı. Türk diasporu nisbətən daha qədim tarixi ənənələrə sahib olduğu üçün nisbətən daha çox təşkilatlanıb. Qərb ölkələrində Azərbaycan və Türkiyə diasporları XIX əsrin sonu və XX əsrin əvvəllərində formalaşmağa başlasa da Azərbaycan diasporları XX əsrin ortalarında sosial-mədəni dərnəklər kimi fəaliyyət göstərirdi. Azərbaycan diasporunun təşkilatlanması elə bu dövrlərə təsadüf edir. Bu təşkilatlanmaya Azərbaycanın yürütdüyü diaspor siyasət ilə yanaşı, artıq xarici ölkələrdə formalaşmış türk diaspor təşkilatları da yardım göstərib.[6]

Türkiyə-Azərbaycan diasporunun fəaliyyətinin birgə həyata keçirilməsi bir neçə istiqamətdə özünü göstərir. Bu istiqamətlər, əsasən, qondarma "erməni soyqırımı" ilə bağlı ermənilərin dünyadakı təbliğatına qarşı mübarizə aparmaq, əsl həqiqətləri dünya ictimaiyyətinin, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı gerçəklikləri beynəlxalq birliyin diqqətinə

[4] https://az.trend.az/azerbaijan/society/1757632.html
[5] https://az.trend.az/azerbaijan/society/1757632.html
[6] https://files.preslib.az/projects/diaspora/c6.pdf

çatdırmaq, Qarabağ müharibəsi zamanı ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm aktları, xüsusilə də Xocalı faciəsi ilə bağlı dünyanın məlumatlı olmasını təmin etmək və ədalətin bərpası üçün lazımi addımlar atmaqdan ibarətdir.

Düşünürük ki, Azərbaycan və türk diasporları qarşısında qoyulan əsas hədəflər yaşadıqları ölkələrin sosial-mədəni həyatı ilə yanaşı, ictimai-siyasi sahədədə fəaliyyət göstərməli, digər vacib cəhət kimi Avropa və ABŞ-ın nüfuzlu, ictimai rəyə təsir göstərməlidirlər. İctimaiyyət arasında, mediada, habelə kütləvi informasiya vasitələrində saxta erməni soyqırımı, Xocalı qətliamı, Qarabağ münaqişəsi, ilə bağlı haqqında məqalələrin, xəbərlərin və ya verilişlərin yayılmasına nail olmalıdırlar.

Bəllidir ki, hər il "Aprelin 24"-ü yaxınlaşan zaman dünyadakı riyakâr erməni diasporu və lobbisi fəaliyyətə keçir. Bu fəaliyyət, əsasən, qondarma "erməni soyqırımı"nın dünyanın müxtəlif dövlətləri tərəfindən tanınmasına istiqamətlənir. Bu fəaliyyət ermənilər tərəfindən ilboyu aparılsa da, həmin aprel ayında ikiüzlü erməni diasporu və lobbisi bütün gücünü ortaya qoyaraq, "soyqırım"ın tanınmasına çalışır.

Məlum məsələdir ki, bunlar ermənilərin Türkiyəni zəiflətməyə istiqamətlənmiş addımlarıdır. Ermənilər, demək olar ki, həmin işdə nəyəsə nail ola bilirlər də. Belə olan halda, tək Türkiyə və Azərbaycan dövlətlərinin birgə fəaliyyəti deyil, diasporların da güclərinin ortaya qoyulması tələb olunur. Diasporlarımız beynəlxalq təşkilatlara müraciətlər etməklə, müxtəlif aksiyalar keçirməklə dünyanın diqqətini Azərbaycanın və Türkiyənin mövqeyinə cəmləşdirə bilirlər. Beləliklə, erməni yalanlarına qarşı alternativ fikir ortaya qoyulmuş olur ki, bu da erməni yalanlarının ayaq açıb-yeriməsinə ciddi əngəllər törədir.

Ermənilərin Xocalıda azərbaycanlılara qarşı törətdikləri soyqırım faktının dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq aləmin həmin hadisəyə lazımi qiymət verilməsi məsələsi də diasporlarımız qarşısında dayanan başlıca vəzifələrdəndir. Bu istiqamətdə birgə-bərabər bir sıra işlər görülməkdədir.

"Xocalıya ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyası da bu qəbildən təqdirəlayiq tədbirlərdəndir. "2008-ci il mayın 8-də Şuşanın işğal günündə start verilən bu kampaniyaya İslam dövlətləri ilə yanaşı, türk diaspor təşkilatları da yaxından kömək göstəriblər". [7]

Azərbaycan və Türkiyə diasporlarının konseptual işbirliyi ilə yanaşı, bəzi problemlər də mövcuddur. Türk və Azərbaycan diasporlarının Avropa və ABŞ-da bəzi zəif cəhətləri var; bunun da özünəməxsus səbəbləri var. İlk öncə ona görə ki, Qərb ölkələrində diasporlarımızın

[7] Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model. Üç cilddə. I cild. Bakı, 2014, 340 s. şəkilli.

formalaşma tarixi XIX və XX əsrlərə təsadüf etsə də, yəhudi, Yunan, irland və bu işdə öndə olan xalqların diaspor təşkilatları ilə müqayisədə zəif təşkilatlanıb. Hətta diasporların təşkilatlanmasına maneçilik törədən bəzi obyektiv və subyektiv amillər də mövcuddur. Türk diasporları sıralarında dini-ideoloji məsələlərdən qaynaqlanan, dövlət və millət maraqlarını ikinci və hətta üçüncü səviyyədə görən, solçu siyasi düşüncəyə sahib olan və milliyyətçi dünyagörüşünə malik insanların mövcudluğu bəzi hallarda xarici ölkələrdə yaşayan bütün türklərin bir güc kimi birləşməsinə mane olur. İnsanların fərqli düşüncəyə sahib olmaları milli mənafe yönündə fikir müxtəlifliyi yaradır.

Təbii ki, neqativ hallar Azərbaycan diasporunda da mövcuddur və təşkilatlar arasında da müəyyən fikir ayrılığı vardır. Belə ki, xaricdə yaşayan azərbaycanlılar, soydaşlarımız-həmvətənlərimiz iqtidaryönümlü və müxalifyönümlü klublar yaradıblar. İctimai-siyasi dünyagörüşü diaspor fəaliyyətində də ciddi fəsadlarla nəticələnir ki, bu da milli baxımdan olduqca təəssüf doğuran haldır.

Göründüyü kimi, diasporun siyasiləşməsi qətiyyən yolverilməzdir. Bu sosial-mədəni fenomen kimi, ancaq etnik lobbiçiliklə məşğul ola və milli maraqları təmsil edə bilər.

Məhz buna görə də Azərbaycan və türk diasporları daha yaxşı nəticələr əldə etmək üçün, dövlətlərimizin inkişafı naminə bütün siyasi dünyagörüşü məsələləri kənara qoymalı və hər sahədə bir fəaliyyət göstərməlidirlər. Bunun üçün dünyada güclü lobbiçilik və diaspor təşkilatı ənənələrinə sahib olan xalqların təcrübələrini mənimsəməlidirlər. Bütün türklərin diasporları və bizə dost münasibət bəsləyən digər xalqların diasporları ilə sıx əməkdaşlıq qurulmalıdır.

2007-ci ildə Türk Dövlət və Cəmiyyətlərinin IV Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında, habelə "Erməni iddiaları və Azərbaycan gerçəkliyi" İkinci Beynəlxalq Simpoziumunda qeyd edilən nüanslar strateji addımlar üçün müəyyənləşdirilmiş xəttir. "Bir kök üzərində şaxələnən türk xalqları dünyanın müxtəlif yerlərində məskunlaşaraq böyük və şərəfli bir tarix yaşamış, neçə-neçə qüdrətli dövlət yaratmışlar. Bugün müasir türk xalqları öz qədim tarixlərinə sadiq qalaraq elmi, mədəni, iqtisadi və siyasi əlaqələrini daha da genişləndirir, qarşılıqlı münasibətlərin yeni bir inkişaf dövrünə qədəm qoyurlar. Əminəm ki, məhz həmin məqsədlərə xidmət edən bu ali məclisiniz türk dövlət və icmaları arasında dostluq, qardaşlıq və əməkdaşlıq sahəsində yeni bir mərhələ olacaq, xalqlarımızın yaxınlaşması, türk dünyasının çiçəklənməsi yolunda mühüm rol oynayacaqdır".[8]

[8] https://lib.aliyev-heritage.org/print.php?lang=AZ&page=6697109

Hələ 1996-cı ildə Azərbaycanın Prezidenti Heydər Əliyev tərəfindən "Türk dövlət və icmalarının IV dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı"nın iştirakçılarına müraciətində uzaqgörənliklə deyilmiş bu fikirlər gələcək perspektivlərə hesablanmışdır.

"Elmi toplantınız son dərəcə aktual bir məsələyə - ermənilərin son iki əsrdə Azərbaycana qarşı həyata keçirdiyi soyqırımı, etnik təmizləmə və deportasiya siyasətinə həsr olunmuşdur. On illərdir ki, Azərbaycan və Türkiyə dövlətləri ermənilərin siyasi-ideoloji təxribatları və əsassız ərazi iddiaları ilə üz-üzədir. Milli varlığımıza qarşı böyük bir cəbhədə clmi-idcoloji. Siyasi-diplomatik və hərbi-strateji savaş meydanı açılmış, bir vaxtlar tarixi-etnik torpaqlarımızda bərqərar edilən hazırkı Ermənistan-Azərbaycan və Türkiyə əleyhinə olan beynəlxalq maraqların koordinasiya mərkəzinə çevrilmişdir".[9]

Ermənilərin işğalçılıq, soyqırım siyasətinin və terror fəaliyyətinin ifşası Azərbaycan və türk icmaları ölkələrimiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın terror, soyqırım və işğalçılıq siyasətinin, qondarma "erməni soyqırımı" iddialarının ifşa edilməsi məqsədilə ötən müddət ərzində bir sıra tədbirlər keçirmiş, etiraz aksiyaları və təbliğat kampaniyaları təşkil etmişlər.[10]

Belə ki, 2005-ci ilin fevralında Amerika Türk Assosiasiyaları Assambleyası (ATAA) ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü cənab Den Bertona təşəkkür məktubu göndərmişdir. Məktubda Assambleya Xocalı soyqırımı ilə bağlı ABŞ Konqresindəki çıxışına görə Amerikada yaşayan bütün türklər adından konqresmenə təşəkkürünü ifadə etmişdir. Məktubda bildirilmişdir ki, 1992-ci ilin 25-26 fevralında Ermənistanın silahlı qüvvələri tərəfindən sovet Rusiyasının qalığı olan 366-cı motoatıcı alayının iştirakı ilə törədilən Xocalı qırğını misli görünməmiş vəhşilik aktı olmuş, bütöv bir şəhərin yer üzündən silinməsi ilə nəticələnmişdir. Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyət uzun müddət bu problemə biganəliklə yanaşmışdır. ATAA-nın məktubunda Avropa Şurası Parlament Assambleyasının 2005-ci ilin yanvar ayının 25-də qəbul edilmiş 1416 saylı "Dağlıq Qarabağ münaqişəsinə dair Qətnamə"si də təqdir olunmuş və Amerikadakı türk icmasının bu sənədi alqışladığı bildirilmişdir. Qətnamədə Xocalı soyqırımının beynəlxalq ictimaiyyət tərəfindən tanınacağına və xalqımızın haqq səsinin bütün dünya tərəfindən eşidiləcəyinə inam ifadə edilmişdir".[11]

2007-ci il 9 mart tarixində Bakı şəhərində Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I Forumunda "erməni soyqırımı" Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumu Bəyanatı bu istiqamətdə unikal yol xəritəsidir: "Biz - Dünya Azərbaycan

[9] Azərbaycan-Türkiyə: bir millət, iki dövlət: vahid diaspor. Çaşıoğlu, Bakı, 2007, 120 s.
[10] http://diaspor.gov.az/xeberler/x176.php
[11] Memmedov S. Azerbaycanlılara karşı Ermenilerin işletdikleri soykırım. Bakı, 2015, 16 s.

və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunun iştirakçıları beynəlxalq sülhün və təhlükəsizliyin, sivilizasiyalararası dialoqun, xalqların dinc və yanaşı yaşamaq, qarşılıqlı sosialmədəni inteqrasiya istəyinin müstəsna əhəmiyyət kəsb etdiyi bir dövrdə bəzi qüvvələrin milli zəmində ədavət yaratmaqla dövlətləri məqsədli şəkildə qarşı-qarşıya qoymaq cəhdlərindən narahatlığımızı bildiririk. Region xalqları arasında səmimi qonşuluq, əməkdaşlıq səylərinin formalaşmasına neqativ təsir göstərən, yeni münaqişə və qarşıdurmalara səbəb ola bilən qondarma «erməni soyqırımı» iddiaları ilə bağlı bəzi ölkə parlamentlərinin və beynəlxalq təşkilatların qəbul etdiyi qərarları beynəlxalq hüququn normaları, demokratiya və söz azadlığı prinsipləri ilə yanaşı, tarixi həqiqətlər və sağlam məntiqlə də ziddiyyət təşkil edir”.[12]

Ümumilikdə, beynəlxalq ictimaiyyət **və** təşkilatlar, xüsusilə BMT-nin *“Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya”*sını əsas tutaraq, belə hadisələrə obyektiv reaksiya verməlidir. Çünki, soyqırımı aktı bəşəriyyətə qarşı amansız cinayətdir. Heç bir xalq bundan sığortalanmayıbdır. Məsələyə vaxtında obyektiv hüquqi qiymət verilməzsə, cinayətkarlara ibrət dərsi verilməzsə başqa cinayətlərin, qanlı əməllərin törədilmə ehtimalı böyükdür.

Tarix təkcə onu yaradanlardan, hadisələri qələmə alan salnaməçilərdən deyil, uzaq və yaxın keçmişdə baş verənləri araşdırıb yaddaşlara qaytaran müasir tədqiqatçılardan və onlara müvafiq qiymət verən siyasətçilərdən də böyük məsuliyyət tələb edir. Tarixin məqsədli şəkildə təhrif olunması, qərəzli saxtakarlıq cəhdləri xalqlar və dövlətlər arasında münasibətlərin gərginləşməsinə, qarşıdurmaların dərinləşməsinə yol açır.

1915-1918-ci illərdə Türkiyə ərazisində baş verdiyi iddia olunan hadisələrin elmi baxımdan araşdırılması birmənalı şəkildə “erməni soyqırımı” iddiasının tarixi həqiqətə söykənmədiyini, siyasi məqsədlər daşıyan saxtakarlıq nümunəsi olduğunu dəfələrlə sübuta yetirmişdir. Eyni zamanda, Türkiyə Respublikası gerçəkliyin obyektiv mənzərəsinin bir daha bərpası üçün öz arxivlərini tədqiqatçıların üzünə açdığını rəsmən bildirmiş, Ermənistanla birgə araşdırma komissiyasının yaradılmasını təklif etmişdir. Lakin rəsmi Yerevan təklifdən imtina edərək müraciəti cavabsız qoymuşdur. Ermənistanın bu hərəkəti onun qondarma “erməni soyqırımı” haqqında həqiqətin dünya ictimaiyyətinə çatdırılmasından, iddialarının faktlara deyil, uydurmalara söykəndiyinin bir daha sübuta yetiriləcəyindən ciddi narahatlıq keçirdiyinin göstəricisidir.[13]

[12] https://files.preslib.az/site/diaspora/gl4.pdf

[13] Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Mustafa Nazim, Qurbanov Araz, Elşad Əlili. Bakı, 2018, s.270

Tarixi faktlar - sənədlər, şahid ifadələri sübut edir ki, XX yüzillikdə soyqırım, etnik təmizləmə siyasətinə ermənilər deyil, məhz türklər məruz qalmışlar. Buna, Azərbayan türklərinə qarşı erməni millətçiləri tərəfindən törədiliş 1918-ci il 31 Mart qırğınlarını, 1992-ci il 17 fevral Qaradağlı qətliamını, 1992-ci il 26 feral Xocalı soyırımını ə digərlərini göstərək olar.[14]

Həmin illər Türkiyənin bir dövlət kimi müqəddəratının həll edildiyi dövr idi. Xarici dövlətlərin işğalçılıq yürüşləri ölkəni parçalanıb bölünmə və birdəfəlik süqut təhlükəsi ilə üz-üzə qoymuşdu. Türkiyənin erməni əhalisi işğalçıların yalançı vədlərinə uyaraq, yüzilliklər boyu yaşadığı torpağa xəyanət etmiş, düşmən tərəfinə keçərək dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirmişdir. “Həmin illərdə təkcə rus ordusunun tərkibində 160 min erməni döyüşürdü. Bu dövrdə 2 milyondan çox türk Vətənin azadlığı uğrunda mübarizədə şəhid olmuşdur. Ermənilərin və onların havadarlarının əli ilə Göyçə və Zəngəzur daxil olmaqla Azərbaycan ərazisində, habelə İranda yüzminlərlə dinc sakin öldürülmüşdür. Ermənilər soyqırımı aktlarına təkcə etnik türkləri deyil, Azərbaycan diasporu 72 kürdləri, gürcüləri, yəhudiləri, ləzgiləri, avarları da məruz qoymuşlar. Qərbdəki erməni havadarlarının bu faktlara göz yumması acı təəssüf hissi doğurur. Həmin illərdə həlak olan ermənilərin böyük hissəsi Rusiya, İngiltərə, Fransa, Yunanıstan hərbi birləşmələrinin tərkibində Türkiyəyə, türklərə qarşı silah qaldıranlar olmuşlar”.[15]

Elə bu səbəbdən 1915-1918-ci illər ərzində ölən ermənilərin həqiqi sayı Ermənistan tərəfindən gizlədilir, dünya ictimaiyyətinə isə şişirdilmiş rəqəmlər təqdim olunur. Yuxarıda göstərilənləri nəzərə alaraq hesab edirik ki, həqiqəti müəyyənləşdirmədən, dəqiqləşdirmədən tələsik qərarlar çıxarmaq ən yaxşı halda məsələyə təmənnalı, qərəzli yanaşmanın təzahürü olub, dövlətlərarası münasibətlərə xələl gətirir. Tarixi hadisələri araşdırıb qiymət vermək parlamentlərin, beynəlxalq təşkilatların deyil, tarixçilərin vəzifəsidir. Türk xalqları hər zaman sülh tərəfdarı olmuş və tolerantlığı ilə seçilmişlər. Bugün “erməni soyqırımı”nı tanıyan və ya bu addımı atmaq istəyən dövlətlərdə neofaşizm, ksenofobiya, irqçi və dini ayrı-seçkilik meyillərinin baş qaldırdığı halda Türkiyəni guya soyqırım törətməkdə ittiham etmək ən azı ədalətsizlikdir. 2007-ci ildə erməni mənşəli jurnalist Hrant Dinkin qətlinə Türkiyə ictimaiyyətinin reaksiyası türk xalqının nə qədər humanist, tolerant və sülhsevər olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Ötən əsrin əvvəllərində baş verdiyi iddia olunan, heç bir

[14] Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Mustafa Nazim, Qurbanov Araz, Elşad Əlili. Bakı, 2018, s.270

[15] Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada (hadisə və faktların xronikası). Bakı, 1994, 184 s.;
Əliyev C., Budaqov B. Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin soyqırımı. Bakı, 2003, 289 s.

real tarixi fakta əsaslanmayan uydurma «soyqırım» yalanı barədə qərəzli müzakirə açanlar XX əsrin sonlarında, bütün dünyanın gözü qarşısında baş vermiş, sənədlər, foto və video çəkilişlər, şahid ifadələri ilə təsdiq edilən “Xocalı soyqırımı” kimi dəhşətli bir cinayəti görməməzliyə vururlar.

“Biz - Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunun iştirakçıları qondarma “erməni soyqırımı” yalanını müzakirə masası üzərinə gətirən parlamentarilərə və beynəlxalq təşkilatlara müraciət edərək bu ədalətsizliyə son qoyulmasını tələb edirik. Erməni diaspor və lobbisi tərəfindən türklərə qarşı irəli sürülmüş bu ittihamları bütün Türk dünyasına qarşı yönəlmiş təhdid və iftira kimi qiymətləndiririk. Biz eyni zamanda, “erməni soyqırımı”nın baş verdiyini iddia edənləri Türkiyənin çağırışlarına qoşularaq birgə komissiya yaratmağa və məsələnin araşdırılmasını mütəxəssislərə həvalə etməyə çağırırıq”.[16]

Təqdirəlayiq haldır ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumlarının və təşkilat rəhbərlərinin artıq səmərəli əməkdaşlığı mövcuddur.

2018-ci ildə Türkiyə Respublikasında 3-cü iclası keçirilmiş, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasını təmsil etmişdir. Burada türkdilli diasporların hazırkı vəziyyətinin və şuraya üzv dövlətlərin diaspor qurumları arasında güclü koordinasiya və əməkdaşlıq imkanları, Türk Şurasının “Türk Şurası Türkdilli Diasporların Birgə Fəaliyyət Strategiyası” və “2018-2019-cu illər üzrə Türkdilli Diasporların birgə Fəaliyyət Planı”nın qəbul edilməsi, Türk Şurasının II Diaspor Forumunun keçirilməsi, Türkdilli Diasporların Atlasının hazırlanması, Türk Şurasının diaspor məsələlərinə məsul dövlət qurumlarının və təşkilat rəhbərlərinin növbəti görüşünün vaxtı və yerinin müəyyənləşdirilməsi və digər məsələlər ətrafında geniş müzakirlər aparılmışdır”.[17]

Fikrimizcə, müasir dövrün çağırışları kontekstində Azərbaycan və Türkiyə diasporları birgə fəaliyyəti üçün aşağıdakılar amillər əsas prioritet təşkil edir:

- Azərbaycan və Türkiyə diasporları tərəfindən “Erməni soyqırımı” iddiaları ilə bağlı əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində birgə fəaliyyət strategiyasının hazırlanması.

[16] Dünya Azərbayan və türk diaspor təşkilatları rəhbərlərinin birini forumu. İndigo, Bakı, 2002, 274 s.;
[17] http://diaspor.gov.az/xeberler/x176.php

- Azərbaycanlıların soyqırımı və Xocalı faciəsi haqda reallıqların dünya xalqlarına çatdırılması və "Xocalı soyqırımı günü"nün beynəlxalq miqyasda keçirilməsi üçün Azərbaycan və Türkiyə diasporlarına müraciət edilməsi.
- Diaspor fəaliyyətində müdafiədə yox, hücumda olunması, Türkiyə və Azərbaycanın qlobal strateji addımlar atılması, hər iki dövlətin lobbi fəaliyyətlərinin birləşdirilməsi.
- Azərbaycan və Türkiyə diasporlarının birgə strategiyasının müasir çağırışlara uyğun təkmilləşdirilməsi və bu strategiyaya söykənərək fəaliyyətin göstərilməsi (Bu fəaliyyət təkcə erməni məsələsində yox, dünyanın dəyişən konfiqurasiyasında öz yerini tutmaq üçün gərəklidir).
- Türkiyə və Azərbaycanın əsas qlobal diaspor birlikləri yaradılması. (Məsələn, Avropa'da böyük konqres təsis oluna bilər, kontinental diaspor birlikləri qurula bilər. Diasporların işi beynəlxalq təşkilatlara sirayət etdirməli, BMT-də daimî şuralarda təmsil olunması nəzərdən keçirilməlidir).
- Azərbaycan-Türkiyə diasporları mərkəzdə olmaqla, yeni strategiyanın müəyyənləşdirilməsi və türk xalqlarının diaspor təşkilatlarının perspektiv inkişafının təmin edilməsi.
- Türkiyədə və Azərbaycanda diasporla iş üzrə müvafiq qurumlar var, onlar arasında birgə fəaliyyət üçün Memorandum imzalanması və yeni hədəflərə doğru mütərəqqi addımlar atılması.
- "BMT-nin Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya"sı çərçivəsində 30-cu ildönümü ilə bağlı "Xocalı faciəsinə hüquqi baxış" mövzularında Beynəlxalq konfransların təşkil olunması.
- Ümumdünya Türk Diasporları Konqresinin yaradılması və Türk Dövlətləri Təşkilatının ixtisaslaşmış qurumları orqanları sırasına daxil edilməsi.
- Türk Dövlətləri Təşkilatının gələcək hədəflərinə nail olunması məqsədilə Gənclər Platformasının yaradılması və Diaspor Gənclərinin Forumlarının keçirilməsi.

Bu üsusların reallaşdırılması ümummilli işimizin xeyrinə ola və effektiv nətiə verə bilər.

Göründüyü kimi, çağdaş dünyanın reallıqları diasporlarımız arasında əlaqələrin bütün istiqamətlərdə yüksəlişinə zəmin yaratmaq, bu tərəfdaşlığın məqsədyönlü, sistemli, ardıcıl və çevik həyata keçirilməsini təmin etmək üçün vahid bir konsepsiyanın hazırlanması zərurətini ortaya çıxarmışdır.

XX əsrin sonlarında Sovet imperiyasının süqutundan sonra müstəqillik əldə etmiş türk dövlətləri arasında münasibətlərin dərinləşməsi və genişləndirilməsi istiqamətində ötən müddət ərzində atılmış, siyasi, iqtisadi, sosial, mədəni xarakterli addımlar Türk xalqlarının birliyi və həmrəyliyinin möhkəmlənməsinə təkan vermişdir. Azərbaycan-Türkiyə münasibətlərinin dinamik inkişafı bu prosesin parlaq təzahürüdür. Bu sarsılmaz əlaqələrin möhkəmlənməsi istiqamətində həyata keçirilmiş tədbirlər Türk dünyası birliyinin ideyadan reallığa çevrilməsində mühüm rol oynamışdır. İki ölkə arasında münasibətlərin indiki səviyyəsi Azərbaycan və Türkiyə diasporlarının əlaqələrinin möhkəmlənməsi üçün etibarlı zəmin yaratmışdır. Azərbaycan və Türkiyə icmaları bu zəminə əsaslanaraq bir sıra ölkələrdə effektiv tədbirlər təşkil etmiş, xalqlarımızın tarixi və müasir inkişaf səviyyəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində səylərini birləşdirməyə çalışmışlar.

2021-ci il aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda Beynəlxalq Böhran Qrupunun Türkiyə nümayəndəliyinin bu xüsusda sualını belə cavablandırmışdır:

"…biz Türkiyəyə münasibətdə siyasətlərinin yenidən nəzərdən keçirilməsi ilə bağlı Ermənistan isteblişmentində bəzi işarələr və bəzi zəif fikirlər görürük. Hətta münaqişə zamanı mən dəfələrlə bu barədə danışaraq demişəm ki, tamamilə qəbuledilməz və qəribədir ki, Ermənistan kimi kiçik, yoxsul və zəif ölkənin Türkiyə kimi böyük və güclü ölkəyə qarşı ərazi iddiaları var. Onlar öz ideoloji doqmalarına o qədər tabe idilər və türkofobiya dövlət siyasəti oldu ki, onlar hətta reallıq hissini itiriblər. Bildiyimə görə, Türkiyə hökuməti addımlarını çox konstruktiv şəkildə planlaşdırır. Lakin, əlbəttə ki, onlar adekvat cavab almalıdır. Ermənistan ilk olaraq nə etməlidir? Onlar Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidir, öz konstitusiyalarını yenidən yazmalıdırlar. Onlar yeni konstitusiya qəbul etməlidirlər. Onlar bunu planlaşdırırlar, lakin bu, hökumətin siyasi gündəliyi üçündür. Hökumət öz siyasi mövqeyini gücləndirmək istəyir. Lakin, eyni zamanda, düşünürəm ki, onlara yaxşı məsləhət verə bilərəm. Öz konstitusiyalarından Türkiyəyə qarşı ərazi iddialarını çıxarsınlar. Mən bilmirəm, hansı ölkənin konstitusiyasında digər ölkəyə qarşı ərazi iddiaları var. Zənnimcə, bu, nadir haldır və hər kəs başa düşməlidir ki, tarix boyunca çoxsaylı müharibələr olub və onların soyqırımı ilə bağlı saxta tarixinin reallıqla heç bir əlaqəsi yoxdur. Bu, müharibə idi, elə bir vəziyyət idi ki, insanlar bir-birilə savaşırdılar, ölkələr bir-birilə savaşırdı, lakin sonra barışıq oldu. Yeri gəlmişkən, həmin dövrdə Ermənistanın nəinki Osmanlı imperiyası ilə çətinlikləri var idi, onların digər qonşuları ilə də çətinlikləri var idi. Niyə onlar haqsız hücumları üçün yalnız Türkiyəni seçdilər? Türkiyə hökuməti bu məsələlərlə qərəzsiz, obyektiv şəkildə məşğul olmaq

üçün tarixçilərdən ibarət birgə qrupların yaradılmasını açıq şəkildə dəfələrlə təklif edib. Lakin onlar imtina ediblər. Niyə? Çünki onların siyasi dividendlər qazanmaq üçün bu saxta tarixə ehtiyacı var. Onlar bəzi ölkələrdən müdafiə, müəyyən yardım əldə etmək üçün bu saxta hekayədən istifadə edirdilər”.[18]

**Nəticə**

Bəşəriyyət tarixin yeni bir dövrünə qədəm qoymaqdadır. Bütün dünyanı əhatə etməkdə olan qloballaşma və inteqrasiya prosesləri beynəlxalq münasibətlərin forma və məzmununu dəyişir, sivilizasiyalararası dialoqu zərurətə çevirir, cəmiyyətin ümumi inkişafına daha dinamik xarakter verir. Bu tarixi mərhələ təkcə Azərbaycan ilə Türkiyənin deyil, bütünlüklə Türk dünyasının qarşısında etnik-milli taleyüklü yeni-yeni vəzifələr qoyur. Türk xalqları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi, beynəlxalq aləmdə vahid söz sahibinə çevrilməsi müasir dövrün çağırışı olmaqla yanaşı, eyni zamanda sayı milyonlarla ölçülən bir arealda, etno-mədəni məkanda yaşayan toplumun inkişaf tələbidir. Təbii ki, bu da türk etnoslarının birliyinə və həmrəyliyinə, habelə Türk Dövlətlər Birliyinin genişlənməsinə və güclənəsinə öz müsbət təsirini göstərəcəkdir.

Bu məlumatlar və faktlar bir daha göstərir ki, Azərbaycan və Türkiyə icmalarının əməkdaşlığı sahəsində kifayət qədər zəngin təcrübə mövcuddur. Hazırda üzərimizə düşən əsas vəzifə müvafiq təcrübəyə əsaslanaraq, gələcəkdə Azərbaycan və Türkiyənin, eyni zamanda bütövlükdə digər türk dövlətlərinin milli maraqlarını daha effektiv şəkildə mühafizə və müdafiə etməyə imkân verən diasporla işbirliyi sahəsində müasir təşəbbüslərin göstərilməsi yeni mexanizmlərin yaradılmasına və uzunmüddətli ümumi strateji hədəflərə nail olmaqdır.

[18] https://president.az/articles/51088

**Kaynakça**


Azərbaycan Respublikası Ədliyyə Nazirliyi vahid elektron bazası: https://e-qanun.az/framework/49147

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi vahid elektron bazası: https://e-qanun.az/framework/49147

Prezident Kitabxanası: https://files.preslib.az/projects/diaspora/c6.pdf

Trend müstəqil informasiya agentliyinin saytı: https://az.trend.az/azerbaijan/society/1757632.html

Trend müstəqil informasiya agentliyinin saytı: https://az.trend.az/azerbaijan/society/1757632.html

Prezident Kitabxanası: https://files.preslib.az/projects/diaspora/c6.pdf

Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model. Üç cilddə. I cild. Bakı, 2014, 340 s. şəkilli.

Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana: https://lib.aliyev-heritage.org/print.php?lang=AZ&page=6697109

Azərbaycan-Türkiyə: bir millət, iki dövlət: vahid diaspor. Çaşıoğlu, Bakı, 2007, 120 s.

Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi saytı: http://diaspor.gov.az/xeberler/x176.php

Memmedov S. Azerbaycanlılara karşı Ermenilerin işletdikleri soykırım. Bakı, 2015, 16 s.

Prezident Kitabxanası: https://files.preslib.az/site/diaspora/gl4.pdf.

Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Mustafa Nazim, Qurbanov Araz, Elşad Əlili. Bakı, 2018, s.270

Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Mustafa Nazim, Qurbanov Araz, Elşad Əlili. Bakı, 2018, s.270

Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada (hadisə və faktların xronikası). Bakı, 1994, 184 s.;

Əliyev C., Budaqov B. Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin soyqırımı. Bakı, 2003, 289 s.

Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin birini forumu. İndigo, Bakı, 2002, 274 s.

Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi saytı: http://diaspor.gov.az/xeberler/x176.php

Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı: https://president.az/articles/51088